**Azərbaycan Turizm və Menecment Universitetinin rektoru**

**İlham Mədətov**

"14" [handwritten date] 2023

**Azərbaycan Turizm və Menecment Universiteti Publik hüquqi şəxsin Elmi Şurası haqqında**

**ƏSASNAMƏ**

1. Azərbaycan Turizm və Menecment Universiteti Publik hüquqi şəxsə ümumi rəhbərlik mövcud qaydada təşkil olunmuş və rektorun başçılıq etdiyi Elmi Şura tərəfindən həyata keçirilir. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şuranın vaxtından əvvəl yenidən yaranması onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə həyata keçirilə bilər.

2. Elmi Şura Azərbaycan Respublikasının qanunvericiliyinə, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikası Təhsil Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, "Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə, Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsinə və bu Əsasnaməyə uyğun olaraq formalaşdırılır və fəaliyyət göstərir.

3. Tutduqları vəzifələrinə görə Elmi Şuranın tərkibinə ali təhsil müəssisəsinin rektoru (sədr), tədris işləri üzrə prorektoru (sədr müavini), prorektorlar, elmi katib, dekanlar, Azərbaycan Turizm və Menecment Universitetinin tərkibində fəaliyyət göstərən həmkarlar təşkilatının sədrləri (əməkdaşların və tələbələrin), şöbə müdirləri və Tələbə Elmi Cəmiyyətinin sədri daxil olur. Elmi Şuranın digər üzvləri Azərbaycan Turizm və Menecment Universitetinin professor-müəllim və elmi işçilərinin ümumi sayının 3-10 %-ni təşkil edir. Bu miqdar rektor tərəfindən professor-müəllim və elmi işçilərin sayından asılı olaraq müəyyənləşdirilir. Elmi Şuraya namizədlər fakültənin professor-müəllim və elmi işçilərin ümumi iclasında gizli səsvermə yolu ilə seçilir. Bundan əlavə Elmi Şuranın tərkibinin 3 - 10 %-ə qədəri Azərbaycan Turizm və Menecment Universitetinin daxilindən Universitetin rektoru tərəfindən ümumi saya əlavə

olaraq təyin edilə bilər. Professor-müəllim və elmi işçilərin ümumi sayının 2/3 hissəsi iştirak etdikdə iclas səlahiyyətli sayılır. Fakültəyə ayrılan yerlərə iştirakçıların 50 %-dən artıq daha çox səs toplayanlar Elmi Şuraya üzv seçilmiş hesab edilirlər. Hər hansı bir əməkdaş Şura üzvlüyündən çıxdığı halda boşalan yeri həmin fakültənin (bölmənin) nümayəndəsi mövcud qaydada vaxtından əvvəl seçki keçirilməklə tuta bilər.

4. Elmi Şura Azərbaycan Turizm və Menecment Universitetinin tabe olduğu Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin göstərişinə əsasən yaradılır və tərkibi onun tərəfindən təsdiq edilir.

5. Azərbaycan Turizm və Menecment Universitetinin Elmi Şurası:

- Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsini qəbul edir, onda əlavələr və dəyişikliklər aparır, tələbələrin, müəllimlərin, əməkdaşların, doktorant, dissertant və dinləyicilərin daxili intizam qaydalarını təsdiq edir.
- Azərbaycan Turizm və Menecment Universitetinin strateji inkişaf proqramını təsdiq edir.
- Hər il Universitetin fəaliyyəti barəsində rektorun hesabatını dinləyir.
- ATMU rektorunun səlahiyyətlərini müəyyənləşdirir və təsdiq edir, lazım gəldikdə rektora əlavə səlahiyyətlər verilməsi məsələsini həll edir;
- ATMU kollektivinin (tələbələrin, müəllimlərin, əməkdaşların, doktorant və dinləyicilərin) daxili intizam qaydalarını təsdiq edir;
- Əsasnamələri, təlimatları və digər normativ sənədləri təsdiq edir;
- ATMU-nun strukturunu müəyyənləşdirir, ona dəyişikliklər və əlavələr edir;
- ATMU-ya tələbə qəbulu planını müəyyənləşdirir;
- Hər il ATMU-nun büdcəsini müəyyənləşdirir, universitetin maliyyə fəaliyyəti haqqında hesabatı dinləyir;
- Mütəxəssislərin, elmi-pedoqoji kadrların hazırlanması, onların ixtisaslarının artırılması və yenidən hazırlanması məsələlərinə baxır, bütün təlim-tərbiyə, elmi-tədqiqat və elmi-metodiki işləri ilə bağlı məsələləri həll edir.
- Tədris planlarını təsdiq edir;
- Dərs vəsaitlərinin, Tədris-metodiki vəsaitlərin, monoqrafiyaların və tədris proqramlarının nəşri üçün qərar verir;
- Imtahanların keçirilmə qaydalarını və qiymətləndirmə kriteriyalarının müəyyən edir;
- Elmi Şuranın üzvləri içərisindən Şuranın katibini seçir, təhsil elmi-metodiki, sosial-iqtisadi və təsərrüfat fəaliyyətləri üzrə komissiyaları yaradır. Onların hesabatlarını dinləyir və müvafiq qərar qəbul edir.

- Şuranın işini təşkil etmək, iclasları hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədi ilə Şura üzvləri arasından elmi katib seçir.
- Fakültələrin, kafedraların və Azərbaycan Turizm və Menecment Universitetinin digər struktur bölmələrinin yaradılması, ləğvi, yenidən təşkili barəsində məsələləri həll edir.
- Vaxtaşırı fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesbatını dinləyir.
- Professor və dosent elmi adlarının, eləcə də respublikanın fəxri ad və mükafatlarının, orden və medalların verilməsinə təqdim edir.
- Müstəsna hallarda, fakültə Elmi Şuraları olmadıqda və münaqişələr yarandıqda rektorun qərarı ilə fakültə dekanı, professor, dosent, baş müəllim seçir və onların vaxtından əvvəl azad olunmaları barəsində məsələlərə baxır.

6. Elmi Şuranın iclasları Əsasnaməyə uyğun olaraq, iki ayda bir dəfədən az olmamaqla, zəruri hallarda isə növbədənkənar iclaslar müəyənləşdirilir. Eyni zamanda Elmi Şura üzvlərinin 2/3 hissəsinin təklifi ilə iclas keçirilə bilər.
7. Elmi Şura tədris ili və hər semestr üçün nəzərdə tutulmuş iş planı üzrə işləyir. Elmi Şuranin iş planı Şura iclasında müzakirə olunub qəbul edilir və rektor tərəfindən təsdiq edilir.
8. Tədris, elmi və tərbiyə işlərinin bütün məsələləri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə sadə səs çoxluğu ilə, professor-müəllim heyətinin, kafedra müdirlərinin, fakültə dekanı seçilməsi və geri çağırılması, professor, dosent və fəxri adların verilməsinə təqdimat zamanı isə müəyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul edilir.
9. Elmi Şuranın qərar çıxarması üçün onun üzvlərinin ən azı 2/3 hissəsinin iştirakı vacibdir. Elmi Şurada iştirak edənlərin ümumi sayının 50 %-dən çoxu müzakirə olunan məsələnin lehinə səs verərsə qərar qəbul olunmuş hesab edilir.
10. Elmi Şuranın qərarları yalnız Universitetin rektoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.
11. Elmi Şuranın iclasları protokollaşdırılır, Elmi Şuranın sədri və elmi katibi tərəfindən imzalanır və elmi katibdə saxlanılır.
12. Elmi Şuranın sədri, Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasını təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlumat verir.
13. Əsaslı səbəblər olduqda, Elmi Şuranın qəbul etdiyi qərarın obyektiv olmadığı, qanunvericiliyə zidd olduğu müəyyənləşdirildikdə Universitetin Elmi Şurasının qərarı Azərbaycan Respublikasının Dövlət Turizm Agnetliyi tərəfindən ləğv oluna bilər.

*Əsasnamə Azərbaycan Respublikası Təhsil Nazirinin 10 noyabr 1997-ci il tarixli 792 saylı əmri ilə təsdiq olunmuş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə və Azərbaycan Turizm və Menecment Universitetinin Nizamnaməsinə uyğun hazırlanmışdır.*